# AZƏRBAYCAN DİLİNDƏ İŞGÜZAR VƏ AKADEMİK KOMMUNİKASİYA ENSİKLOPEDİYASI

Professor Nadir Məmmədli Azərbaycan dilçilik elminin kifayət qədər tanınmış simalarındandır. Maraq dairəsi çox geniş olan alim dilçiliyimizin müxtəlif sahələrinə aid çoxsaylı əsərlərin müəllifidir. Obyektiv gerçəkliyə və elmi əsaslara söykənmək Nadir Məmmədli yaradıcılığının başlıca qayəsini təşkil edir. Dərin dil duyumuna və fitri istidedada malik olması ona tədqiq etdiyi mövzuların lap dərinliyinə varmağa, nəyin doğru, nəyin isə yalnış olduğuna qərar verməyə daim yardımçı olmuşdur. Bir neçə dil bilməsi isə ona dünya dilçiliyi səviyyəsində aktual olan problemlərlə bağlı fikir və mülahizələr irəli sürməyə imkan verir. Görünür, elə buna görədir ki, bu gün Azərbaycan dilçiliyində həllini gözləyən bir çox məsələlərin gündəmə gətirilməsi və həlli yollarının göstərilməsini prof. N.Məmmədlinin adı ilə bağlamaq olar.

Fikrimizə dahilərin müdrik bir kəlamı ilə davam etməyi məqsədəuyğun hesab edirik: "Ölüm və həyat dilin əlinə düşər, onu sevənlər barından yeyər." Nadir müəllimin həyatı ana dilinə sevgi və xidmət nümunəsidir. O, istər pedaqoji, istərsə də elmi fəaliyyəti ilə hər zaman doğma dilinə xüsusi diqqət və qayğı ilə yanaşmış,onun saflığı keşiyində duraraq füsunkar gözəlliyini daha da cilalandırmışdır.

Alimin elmi maraq dairəsi olduqca genişdir. O, dilçiliyin leksikologiya, morfologiya, terminologiya, üslubiyyat, nitq mədəniyyəti və s. sahələri ilə məşğul olur.

Istedadlı alim Azərbaycan dilinin ən aktual problemləri üzrə 200-dən çox əsərin, o cümlədən 13 kitab, 5 monoqrafiyanın müəllifidir. Bu araşdırmaların həsr olunduğu dilçilik problemlərinin əksəriyyəti N.Məmmədli tərəfindən ilk dəfə işlənmiş və ali məktəb proqramlarına daxil edilmşidir. Onun "terminoloji" sinonimlər üzrə araşdırmaları" tarixin ən qaranlıq sahəsinə əsil səyahət kimi yenilik ruhu, arqumentlərinin dolğunluğu, mükəmməlliyi ilə bu sahədə özündən əvvəl aparılmış araşdırmalardan tutarlı şəkildə fərqlənir.

Belə bir məşhur deyim var: adam olmaq asandır, insan olmaq çətin. Yəni hamımız ilk insan olan Adəm peyğəmbərin övladlarıyıq. Bu mənada adam təkcə fizioloji varlıqdır, onun insan olması üçün ictimai varlığa çevrilməsi gərəkir. İctimai varlıq isə cəmiyyətdə formalaşır və bunun da əsas şərti ünsiyyətdir. Deməli. "insan" sözünün nüvəsində ünsiyyət anlayışı durur. Ünsiyyəti olmayana insan demək olmaz. Cəmiyyət üzvləri ilə normal ünsiyyət qurmaq üçün isə mövcud ünsiyyət qaydalarına və normalarına bələdçilik lazım gəlir. Ali məktəblərin bəzi ixtisaslarında "Nitq mədəniyyəti" adı ilə tədris olunan bu fənnin artıq cəmiyyətşunaslıq elmi səviyyəsinə qaldırılması, həmin sahə üzrə biliklərin daha geniş bir sahəni əhatə etməsi zərurəti bir sıra tədris vəsaitləri və kitablarının yazılmasına şərait yaratsa da, etiraf etməliyik ki, vahid bir məqsədə xidmət edən mükəmməl bir dərsliyə və ya dərs vəsaitinə ehtiyac hələ də qalmaqda idi. Məhz belə bir məqamda N.Məmmədli təhsilimizin və zamanın tələbini vaxtında duyaraq ünsiyyət problemlərinin bütün aspektlərini özündə əks etdirən bir əsərin hazırlanmasına qərar verdi və nəticədə bu gün elm təhsil cəmiyyətinə və geniş oxucu kütləsinə çox gərəkli olan fundamental bir əsər yaranmış oldu: "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya"

Kitabı vərəqləyir və mündəricata nəzər salırıq. 4 fəsildən ibarət bu kitabda daha nələr yoxdur?! Şifahi və yazılı ünsiyyətin bütün məqamlarına dair sualların cavabı burada müfəssəl şəkildə öz elmi izahını tapıb. Bu əsəri "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya"nın ensklopediyası adlandırmaq daha doğru olardı. Adətən, ünsiyyət deyəndə onun daha çox şifahi formasına diqqət yetirilir, bu kitabda isə ünsiyyətin həm də yazılı forması geniş şəkildə şərh edilmişdir.

"Alimi kitabından, şairi xalqından soruş" demişlər. Nadir müəllimin zəngin yaradıcılığının hələlik sonuncu məhsulu olan "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" dərsliyini onun parlaq istedadının və gərgin əməyinin uğurlu nəticəsi kimi dəyərləndirmək olar. Oxuculara təqdim olunan bu kitab ümu-

milikdə cəmiyyətin ünsiyyət ehtiyacı, onun tənzimlənməsi prinsipləri və formalaşdırılması üsullarına həsr edilmişdir. “Ürəyin düşüncələri dərin sulara oxşar, dərrakəli adam onu çəkib çıxarar” kəlamının aforistik hikmətinə nəzər salsaq, bu kitabın müəllifin şəffaf sulara bənzəyən, ürəkdən gələn düşüncələrinin məhsulu olduğunu görə bilərik.

Dünyada gedən qloballaşma prosesi kütləvi kommunikasiya vasitələrinin cəmiyyətdəki rolunu xeyli artırmışdır. Bu vasitələrin cəmiyyət həyatına daha dərindən nüfuz etməsi kommunikasiya anlayışının mahiyyətinə yeni çalarlar gətirməkdə ictimai ünsiyyətin bu sahəsinin nəzəri və təcrübi probelmlərinin öyrənilməsinə də maraq və ehtiyacı artırmışdır. Hazırda nitq probelmlərini araşdıran tədqiqatçılar, müxtəlif mətbuat orqanlarında çalışan jurnalistlər və ümumiyyətlə, tabeliyində və əhatəsində olan insanlarla normal ünsiyyət qurmaqda, onlara doğru yol göstərməkdə, düzgün nitq vərdişlərinə yiyələnmələrində yardımçı rol oynayan”Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” kitabı məhz bu zərurətdən yaranmışdır.

Məlumdur ki, on il bundan əvvələ qədər respublika ali məktəblərinin yalnız filoloji fakültələrinin tələbələri üçün “Nitq mədəniyyəti”, “Üslubiyyat” fənləri sadəcə nəzəri bir fənn olaraq tədris edilirdi. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” sərəncamına əsasən ölkə ali məktəblərinin istər filoloji, istər qeyri-filoloji (texniki fakültələr) fakültələrinin hər birində “Azərbaycan dili və nitq mədəniyyəti”, bunun ardınca isə hazırda (2019/20-ci tədris ilindən) “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənləri praktik xarakterdə tədris edilir”.

Kitabda problemə yanaşmanın iki aspektdən təzahürü əksini tapır: 1) Problemə ana dilli istiqamətində yanaşma; 2) Məsələnin həllinə kommunikativ yanaşma.

“Kommunikasiya və dil əlaqələrinin bir spesifik cəhəti də birincinin ədəbi dil normalarının daşıyıcısı olmasıdır [5, s. 186]”. Dil yalnız kommunikasiya vasitəsi deyildir. Daha geniş mənada dil xalqın əbədiyaşarlığının unikal kodu, onun tarixi, mədəniyyəti və bu günün gələcəyə translyasiyasıdır. Onu qorumaq, sevmək hər bir azərbaycanlının müqəddəs vətəndaşlıq borcudur. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində deyilir: “Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir”.

Kitabda müəllif tərəfindən çox yüksək peşəkarlıqla müasir dünyada baş verən qlobal transformasiyalar zəminində kommunikasiya məfhumuna hərtərəfli yanaşma nümayiş etdirilmşidir. Gerçək olan budur ki, cəmiyyət kommunikasiyasız-kommunikasiya isə cəmiyyətsiz yaşam təsirinə malik deyildir. “İnformasiya ötürülməsi prosesini elmi-nəzəri müstəvidə araşdırmaqla, əldə olunan qənaətlər, yeni texnologiyaların heç vaxt insan faktorunu kommunikasiya proseslərindən kənarlaşdıra bilməyəcəyini təsdiqləyir”.

Dərslikdə həmçinin müasir şəraitdə ana dilinə dövlət qayğısından da geniş bəhs edilərək Dövlət Proqramının əsas vəzifələri: Azərbaycan dilinin qlobllaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması, dünya dilçilik elminin müasir inkişaf meyillərini nəzərə almaqla elmi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və s. kimi vacib məsələlər geniş təhlil edilir.

Kitabda Ulu Öndər Heydər Əliyevin dil siyastinin formalaşdırılması, ana dilinin dövlət dili kimi tətdiqi və tətbbqi işinin qurulması istiqamətində gördüyü işlər: dil siyasətinin Cənab Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilməsi və digər məsələlər Azərbaycan Respublikasının Konstitusiyasına istinadən faktlar əsasında tarixi-xronoloji baxımdan araşdırılır və prioritet məqam kimi önə çəkilir. Həmin vacib məqamlardan bir neçəsini diqqətə çatdıraq:

“Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında işlənib hazırlanmış və 1995-cı ildə Ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Əlifbası və Azərbaycan Dili gününün təsis edilməsi haqqında 2001-ci il 9 avqust tarixli Fərmanı dilimizin hüquqi statusunu, onun işlənməsi, qorunması və inkişafı üçün zəruri olan tədbirləri müəyyənləşdirmişdir”.

“Dövlət başçısı tərəfindən 2012-ci il myın 23-də “Azərbaycan dilinin qloballaşma şəraitin-

də zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında", 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" və s.

Kitabın məzmunca bir-birini tamamlayan 4 fəslinin hər biri özündə dilçiliyimiz üçün aktual olan bir sıra problemləri ehtiva edir. Fəsillərdə işgüzar kommunikasiya, onun forma və xüsusiyytələri, sosial əsasları, akademik kommunikasiya, onun mərhələləri və formaları, akademik yazı qaydaları, punktuasiya probelmləri, işgüzar kommunikasiyada spesifiklik; Azərbaycan dilinin funksional üslubları və s. probelmlər haqqında dolğun və mükəmməl biliər verilmşidir.

Dərslikdə oxucunun marağına səbəb olan mühüm faktlardan biri də nitq mədəniyyətinə dair ədəbiyyatlarda kommunikasiyanın uğurlu olmasına, yaxud əksinə, qüsurluluğuna, eləcə də konkret ünsiyyət sahəsində fəaliyyət göstərən müxtəlif tiplərin (informativ, dil, üslubi, kommunikativ) normalarına müəllif tərəfindən xüsusi diqqət yetirilməsidir.

Kitab, eyni zamanda akademik yazı nümunələrinin (elmi məqalə, kurs və buraxılış işləri, icmal, referat, dissertasiya, avtoreferat və s.) hazırlanması və onların tərtibinə verilən tələblərin öyrənilməsi üçün də olduqca böyük elmi əhəmiyyətə malikdir.

"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" kitabı dilçiliyimizin yeni istiqaməti və aktual sahəsi olan tətbiqi dilçiliyə böyük töhfədir. Ən maraqlısı budur ki, müəllif həllinə çalışdığı problemlərin heç birinə tamamlama möhürü vurmur, əksinə, yeni həll yolları təklif edir, müasir perspektivlər açır. Müasir Azərbaycan dilçiliyinin modern inkişaf istiqamətinin təzahürü cəhətdən kitabı müəllifin kifayət qədər böyük bir uğuru kimi dəyərləndirmək olar. Elmi ictimaiyyət professor Nadir Məmmədlidən hələ çox uğurlu əsərlər gözləyir.

**KAMİL BƏŞİROV**
*filologiya elmləri doktoru*

**ƏDALƏT ABBASOV**
*filologiya üzrə fəlsəfə doktoru*